*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 273-278*

https://doi.org/10.62837/2025.3.273

**AFSANA .R.BASHIRZADE**
**e-mail efsanebesirzade8@gmail.com**
**Azerbaidjan State Pedagogical University (Shaki)**
**(Shaki city M.A.Rasulzade, 305)**

# İNGILIS ƏDƏBIYYATINDA INTIBAH DÖVRÜNÜN ƏSAS XÜSUSIYYƏTLƏRI


## Xülasə

**İntibah dövrü** və ya **renessans** (*fr. Renaissance, it. Rinascimento* — "yenidən doğulma", "dirçəlmə"[4][5]) — Avropa tarixinin XV və XVI əsrlərini əhatə edən, Orta əsrlərdən müasirliyə keçid dövrü. O, son orta əsrlər dövrü böhranından sonra baş vermişdir və böyük sosial dəyişikliklərlə səciyyələnir. Standart dövrləşdirməyə əlavə olaraq uzun renessans dövrü fikrini dəstəkləyənlər bu dövrün XIV əsrdə başlayıb, XVII əsrdə sonlandığını irəli sürürlər. Ənənəvi baxış renessansın daha çox erkən müasir aspektlərinə yönələrək onun keçmişdən bir qırılma olduğunu iddia etsə də, bu gün tarixçilərin əksəriyyəti bu dövrü orta əsrlər aspektindən dəyərləndirərək, renessansın orta əsrlərin davamı olduğunu düşünür.[6][7]

İntibah dövrünün intellektual əsası onun öz humanizm versiyasıdır. Humanizm roma mənşəli *humanitas* anlayışı və *hər şeyin ölçüsü insandır* deyən Protaqorun fəlsəfi fikirləri kimi, klassik Yunan fəlsəfəsinin yenidən kəşf edilməsindən törənmişdir. Bu yeni düşüncə incəsənət, memarlıq, siyasət, elm və ədəbiyyatda manifestə çevrildi. Dövrün ilk örnəkləri yağlı boya rəsmlərində perspektivin inkişafı və beton hazırlamadakı yenilənən biliklərdə görülür. Baxmayaraq ki, daşına bilən metal növünün ixtirası 15-ci əsrin sonundan başlayaraq sürətli şəkildə yayılmışdı, renessans dəyişiklikləri bütün Avropada eyni deyildi: İtaliyada renessansın ilk izlərinə 13-cü əsrin əvvəllərində, xüsusilə Dantenin yazılarında və Cottonun rəsm əsərlərində rast gəlmək olur.


**Açar sözlər:** fəlsəfə, aspekt, inkişaf, bilik, islahat, hökmranlıq

Bir mədəniyyət hərəkatı olaraq intibah müasirlərinin Petrarkanın adı ilə əlaqələndirdikləri klassik mənbələrə əsaslanan öyrənmənin XIV əsrdə canlanması ilə başlayan Latın və yerli ədəbiyyatın yenilikçi çiçəklənməsini; xətti perspektivin inkişafı və rəssamlıqda daha təbii bir reallıq göstərmək üçün digər üsulları; tədricən, lakin geniş yayılmış təhsil islahatını əhatə edirdi. Siyasətdə renessans diplomatik adətlərin və konvensiyaların inkişafına, elmdə induksiyaya və müşahidəyə əsaslanan elmi tədqiqatlara töhfə verdi. Baxmayaraq ki, intibah dövrü müasir bankçılıq və mühsasibatlıq sahəsinin ortaya çıxması da daxil olmaqla bir çox intellektual, sosial və elmi məşğuliyyətlərdə inqilablarla xarakterizə olunur, çox güman ki, bu dövrün ən önəmli xüsusiyyətləri incəsənətin inkişafı və "renessans

adamı" termininə ilham mənbəyi olan Leonardo da Vinçi və Mikelancelo kimi polimatların töhfələri sayılır.[8][9]
İntibah dövrü İtaliyanın Florensiya bölgəsində 14-cü əsrdə başlamışdır.[10] Dövrün mənşəyi və xarakteristikasını izah etmək üçün o dövrdə Florensiyanın özünəməxsus sosial və vətəndaş xüsusiyyətləri də — bölgənin siyasi quruluşu, şəhərin dominant Mediçilər süləsinin himayədarlığı və Konstantinopolun Osmanlılar tərəfindən fəthindən sonra yunan alimlərin və onların mətnlərinin İtaliyaya köçü — daxil olmaqla, fərqli faktorlar da nəzərə alınaraq müxtəlif nəzəriyyələr irəli sürülmüşdür.[13][14][15] Digər əsas mərkəzlərə İntibah papalığı dövründə Venesiya, Genuya, Milan, Bolonya və Roma kimi şimali İtaliyanın şəhər-dövlətləri və ya Belçikanın Brügge, Gent, Brüssel, Löven, Antverpen kimi şəhərləri daxil idi.(5)

İntibah dövrünün uzun və qarışıq tarixşünaslığı özündə tarixin dövrləşdirilməsinə qarşı skeptisizm ehtiva edir. Belə ki, "İntibah"ın mədh edilməsi və o dövrün mədəni qəhrəmanlarının "İntibah insanları" olaraq anılması XIX əsrdə tarixçilər arasında çoxlu müzakirələrə səbəb olmuş, onları İntibah sözünün termin və tarixi təsvir kimi istifadəsinin əhəmiyyətli olub-olmadığını sorğulamağa vadar etmişdir.[16] İntibah konseptinə qarşı yönəlmiş bu müqaviməti nəzərdən keçirən incəsənət tarixçisi Ervin Panofski bildirmişdir:

> *İtalyan İntibahının faktuallığının ədəbiyyat üzrə təhsil almış şəxslər tərəfindən istisna hallarda, incəsənət tarixçiləri tərəfindən isə daha nadirən sorğulanmasına baxmayaraq, sivilizasiyanın estetik aspektləri ilə professional cəhətdən məşğul olmaq öhdəliyi olmayan insanların - iqtisadi və sosial tərəqqini, siyasi və dini vəziyyətləri, xüsusilə də, təbiət elmlərini araşdıran tarixçələrin – onu belə mütəmadi şəkildə və həvəslə sual altına salması heç də təsadüfi deyil.*

Bəzi müşahidəçilər intibahı pessimizm dövrü və ya antik dövrə duyulan nostalgiya kimi yox,[18] mədəni "tərəqqi" kimi dəyərləndirsə də, sosial və iqtisadi tarixçilər, xüsusilə də, adları "uzun müddətli" (*fr. long durée*) ifadəsi ilə anılanlar, Panofskinin sözləri ilə desək, "minlərlə bağ ilə" bir-birinə bağlı olan bu iki era arasındakı davamlılığa fokuslanırlar. (1)
*Yenidən doğulma* (*it. rinascita*) termini ilk dəfə Corco Vazarinin *"Rəssamların həyatı"* (1550) adlı kitabında işlədilmiş, 1830-cu illərdə isə ingilisləşdirilərək *İntibah* (*ing. Renaissance*) adlandırılmışdır. Bu sözün istifadəsi Karolinq intibahı (8 və 9-cu əsrlər), Otton intibahı (X və XI əsrlər) və 12-ci əsr intibahı kimi bir sıra başqa tarixi və mədəni hərəkatlara da aid edilmişdir.[22]İntibah dövrü çox yaxşı dövr olmuşdu və insanlar bu dövrdə daha da ağıllanmışdı. Çünki, bu dövr deyilən kimi çox yaxşı dövr olub.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 273-278*

İntibah erkən müasir dövrdə Avropa intellektual həyatında dərindən təsir etmiş mədəni cərəyan idi. İtaliyada başlayan və XVI əsrə qədər Avropanın qalanına yayılan intibahın təsirləri incəsənət, memarlıq, fəlsəfə, ədəbiyyat, musiqi, elm və texnologiya, siyasət, din və intellektual araşdırmanın digər aspektlərində hiss olunurdu. İntibah alimləri tədqiqatlarında humanist metoddan istifadə etdilər və incəsənətdəki insan emosiyasını və realizmini axtardılar.(

Konstantinopolun 1453-cü ildə fəthi nəticəsində özləri ilə birlikdə Qərb üçün qeyri-müəyyən olan qədim yunan əlyazmalarını gətirən yunan alimlərinin Avropaya köç etdiyi dövrdə Poccio Braççolini kimi intibah humanistləri Avropadakı monastır kitabxanalarında Latın ədəbiyyatı, antik dövrün ritorik və tarixi mətnlərinin axtarışında idilər. İntibah alimlərinin tarixi və ədəbi mətnlərə olan yeni fokusu onları mədəni mətnlər yerinə, təbiət elməri, fəlsəfə və riyaziyyatla bağlı yunan və ərəb dilində yazılmış əsərləri tədqiq edən 12-ci əsr İntibah alimlərindən ayırırdı.(4)

İntibah alimlərini neoplatonizmin dirçəlişində xristianlığı inkar etmədilər, əksinə, renessansın ən möhtəşəm əsərləri buna həsr edilmişdi. Kilsə İntibah incəsənəti əsərlərinin çoxusuna himayədarlıq edirdi. Ancaq hiss edilməyən dəyişmə intellektualların mədəni həyatın bir çox hissəsində əks etdirilən dinə qarşı yaxınlaşmalarında baş verdi. Əlavə olaraq, yunan Əhdi-Cədidi də daxil olmaqla, bir çox yunan-xristian əsər Bizantiondan Qərbi Avropaya geri gətirildi və son qədim dövrdən bəri ilk dəfə qərb alimləri tərəfindən öyrənildi. Yunan-xristian əsərlərlə bu yeni tanışlıq və xüsusilə, humanist Lorenzo Valla və Desiderius Erasmus tərəfindən önə çəkilən Əhdi-Cədidin yunan dilində orijinal versiyasının qayıdışı protestantlıq reformasiyasının inkişafına kömək edəcəkdi.(5)

Xeyli sonra klassisizmə ilk bədii qayıdış Nikola Pizanonun heykəltaraşlığında nümunələşdirildi. Mazaççonun rəhbərlik etdiyi Florentina rəssamları perpektivi icra etmək və işıqdan daha təbii istifadə etmək üçün üsullar inkişaf etdirərək insan formasını realistik olaraq çəkməyə başladılar. Ən məşhuru Nikkolo Makiavelli olan siyasi filosoflar siyasi həyatı olduğu kimi göstərmək və bunu rasional olaraq başa düşmək üçün yollar axtardılar. İtalyan İntibah humanizminə vacib töhfə Covanni Piko della Mirandollanın *De hominis dignitate* (*İnsan ləyaqəti haqqında nitq*, 1486) əsəri ilə verildi. Bu əsərdə hər hansısa bir rəqibə qaşı əsaslı şəkildə müdafiə edilən fəlsəfə, təbii düşünmə, inanc və sehir haqqında bir sıra nəzəriyyələr var idi. Klassik yunan və latın əsərlərinin tədqiqinə əlavə olaraq, İntibah yazıçıları loru dillərin istifadəsinə də geniş şəkildə başlamışdılar. Kitab çapı texnologiyasının da kəşf edilməsi ilə bu, xüsusilə Bibliya olmaqla, daha çox insanın kitablara çatmasına səbəb olacaqdı.

Nəticə olaraq, İntibah intellektuallar tərəfindən sekulyarizmi və dünyəviliyi həm antik dövrün ideyalarını dirçəlişi, həm də düşüncəyə roman yaxınlaşması vasitəsi ilə inkişaf etdirmə və öyrənmə cəhdi olaraq görülə bilər. Rodni Stark kimi bəzi alimlər İntibah dövrünün əhəmiyyətini yüksək orta əsrlər dövründəki İtaliya

şəhər-dövlətlərinin erkən innovasiyaları lehinə azaldırlar. Bunlar özündə həssas hökuməti, xristianlığı və kapitalizmin yaranmasını birləşdirirdilər. Bu analizə görə, Avropanın nəhəng dövlətləri (Fransa və İspaniya) mütləq monarxist, digər dövlətlər kilsənin təsirində idilər. İtaliyanın müstəqil şəhər respublikaları isə monastır əmlakı üzərində formalaşan kapitalizmin təməllərini qoydular və daha əvvəl görünməmiş, İntibahı maliyyələşdirən və reallaşdıran ticarət inqilabını başlatdılar.

İntibah humanizmi bəzi yönləri ilə fəlsəfə deyil, bir öyrənmə metodu idi. Yazıçılar arasındakı ziddiyətləri həll etməyə yönəlmiş Orta əsrlər sxolastika ruhunun əksinə, İntibah humanistləri qədim mətnləri orijinal halda öyrənəcək və onları mühakimə və empirik sübutları birləşdirərək dəyərləndirəcəkdi. Humanist təhsil "Studia Humanitatis" proqramına əsaslanırdı. Bura daxil olan 5 humanizmə poeziya, qrammatika, tarix, etika və ritorika aid idi. Baxmayaraq ki, tarixçilər bəzən humanizmin konkret izahını verməkdə çətinlik çəkiblər, çoxu alim "müəyyən qədər ortaq olan izaha — Qədim Yunan və Roma dəyərləri, öyrənmə metodu, ədəbiyyatı və dilini bərpa, tərcümə və etmək" qərar veriblər. Hamısından əlavə, humanistlər "insanın Humanist alimlər erkən müasir dövr boyunca intellektual mənzərəni formalaşdırdılar. Nikkolo Makiavelli və Tomas Mor kimi siyasət filosofları Yunan və Roma mütəfəkkirlərinin düşüncələrini canlandırdı və onlardan müasir hökumətlərin tənqidində istifadə etdi. Covanni Piko della Mirandolla "İntibah manifesti" olaraq adlandırılan, düşünmənin atəşli müdafiəsi *İnsan ləyaqəti haqqında nitq*-i yazdı. *Della vita civile* ("Sivil həyat haqqında", 1528) əsəri və Toskana dilini Latın dili ilə eyni səviyyədə təkmilləşdirməsinə görə tanınan Matteo Palmieri digər bir humanist idi. O, klassik respublikaçılığı dəstəkləyirdi. Palmieri onunla bənzər şəkildə aktiv ictimai həyatda vətəndaş və rəsmi şəxs, həmçinin nəzəriyyəçi və filosof kimi rol almış Siseron və Kvintial kimi roma filosof və nəzəriyyəçilərindən faydalandı. Yəqin ki, onun insan haqqında ən müfəssəl düşüncələri 1465-ci ildə yazdığı poetik əsər *La città di vita*-da da əks olunsa da, bundan əvvəl yazdığı *Della vita civile* daha ətraflı idi. 1430-cu il taunu dövründə Florensiyadan kənarda, Muqellodakı kənd evində keçən bir sıra dialoqlardan ibarət olan əsərdə Palmieri ideal vətəndaş keyfiyyətləri haqqında daha geniş izah verirdi. Dialoqlara mental və fiziki olaraq uşaqların necə yetişdirilməsi, vətəndaşların əxlaqi olaraq özlərini necə aparmalı olduğu, vətəndaş və dövlətlərin ictimai həyatda doğruluğu necə təmin edəcəyi və praqmatik olaraq faydalı olan ilə doğru olan arasındakı fərq haqqında önəmli debat daxil idi.

Humanistlərə görə, insan ölümdən sonrakı həyata keçid edəndə təhsillə əldə edə bildiyi mükəmməl ağıl və bədənə sahib olmalı idi. Humanizmin məqsədi fiziki və intellektual mükəmməlliyi özündə cəmləşdirən və istənilən vəziyyətdə ləyaqətli şəkildə davranan bəşəri insan yaratmaq idi Bu ideologiya *uomo universale* kimi, qədim Yunan-Roma idealına istinad edirdi. İntibah dövründə təhsil, əsasən antik

ədəbiyyat və tarixdən ibarət idi, çünki klassiklərin insan davranışının intesiv anlaşılması və əxlaqi quruluşu təmin etdiyi düşünülürdü.

**İstifadə olunmuş ədəbiyyat**

1. Stephen A. Barney (1989). Orta əsrlər lüğəti. cild-1. ISBN:0-684-16760-3
2. William R. Cook və Ronald B. Herzman (2001). Orta əsrlərin kəşfi. Tədris Şirkəti. ISBN:1-56585-701-1
3. Norman F. Cantor, The Civilization of Middle Ages, 1993:40. https://www.goodreads.com/book/show/321173.The_Civilization_of_the_Middle_Ages
4. Florin Calian (2013).Qeyri-müəyyənliyin "Aydınlıqları": Orta əsrlər kitabi
5. Robert Lamberton (1989). İlahiyyatçı Homer: Neoplatonist Alleqorik Oxu və Epik Ənənənin Artması (London: Kaliforniya Universiteti Mətbuatı).

**A.R.BASHIRZADE**

## Main features of the Renaissance in English literature

**Summary**

The Renaissance (fr. Renaissance, it. Rinascimento — "rebirth", "revival") is a period of European history spanning the 15th and 16th centuries, a period of transition from the Middle Ages to the modern era. It occurred after the crisis of the late Middle Ages and was characterized by major social changes. In addition to the standard periodization, supporters of the idea of a long Renaissance period suggest that this period began in the 14th century and ended in the 17th century. Although the traditional view focuses more on the early modern aspects of the Renaissance, arguing that it was a break with the past, most historians today consider the period to be a continuation of the Middle Ages, evaluating it from a medieval perspective.[6][7] The intellectual basis of the Renaissance is its own version of humanism. Humanism arose from the rediscovery of classical Greek philosophy, such as the Roman concept of humanitas and the philosophical ideas of Protagoras, who said that man is the measure of all things. This new thinking manifested itself in art, architecture, politics, science, and literature. Early examples of the period include the development of perspective in oil painting and the renewed knowledge of concrete. Although the invention of portable metalwork spread rapidly from the late 15th century onwards, the Renaissance changes were not uniform throughout Europe: in Italy, the first traces of the Renaissance can be found in the early 13th century, especially in the writings of Dante and the paintings of Cotto.

**Keywords:** philosophy, aspect, development, knowledge, reform, rule

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2025*
*Səh. 273-278*

**А.Р.БАШИРЗАДЕ**

**Основные характеристики эпохи Возрождения в английской литературе**

**РЕЗЮМЕ**

Ренессанс (фр. Renaissance, итал. Rinascimento — «возрождение», «возрождение») — период перехода от Средних веков к современности в европейской истории, охватывающий XV—XVI века. Он наступил после кризиса позднего Средневековья и характеризовался крупными социальными изменениями. В дополнение к стандартной периодизации сторонники идеи длительного периода Возрождения предполагают, что этот период начался в XIV веке и закончился в XVII веке. В то время как традиционный взгляд на Ренессанс больше фокусируется на ранних современных аспектах периода, утверждая, что это был разрыв с прошлым, большинство историков сегодня рассматривают этот период с точки зрения средневековья, считая Ренессанс продолжением Средних веков. Интеллектуальной основой эпохи Возрождения является ее собственная версия гуманизма. Гуманизм возник в результате повторного открытия классической греческой философии, в частности римской концепции humanitas и философских идей Протагора, который утверждал, что человек есть мера всех вещей. Это новое мышление проявилось в искусстве, архитектуре, политике, науке и литературе. Ранние примеры этого периода можно увидеть в развитии перспективы в масляной живописи и обновлении знаний в области подготовки бетона. Хотя изобретение переносных металлических шрифтов быстро распространялось с конца XV века, изменения эпохи Возрождения не были одинаковыми по всей Европе: в Италии первые следы Ренессанса можно обнаружить в начале XIII века, особенно в трудах Данте и картинах Котто.

**Ключевые слова:** философия, аспект, развитие, знание, реформа, правило

**Rəyçi: fil.ü.f.d.dos.U.B.Mürşüdova**